## *TARİXİN TƏDRİSİ METODİKASI, TARİX FƏNNİNİN TƏRBİYƏEDİCİ İMKANLARI*

# İNTEQRASİYA QLOBALLAŞMA İLƏ ƏLAQƏDAR TARİX, FƏLSƏFƏ VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏRƏ YENİ YANAŞMA

**Məmmədhəsən Əliyev,**
*tarix üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Cəlilabad filialı*
E-mail: məmmədhəsənəliyev (a) mail.ru

**Rəyçilər:** *ped.ü. fəls. dok., dos.* T. Paşayev,
*tarix ü.fəls.dok.* M. Abbasov

***Açar sözlər:*** *İqtisadiyyat, konqlomerat, qloballaşma, tarix ,fəlsəfə beynəlxalq münasibətlər, Azərbaycan tarixi, spiralvari dinamik inkişaf, Əsrin müqaviləsi, Xocalı soyqrımı, Bakı-Tiblisi-Qars*

***Ключевые слова:*** *Экономика, конгломерат, глобализация, история, философия, международные отношения, история Азербайджана, спиралевидная динамика, Контракт века, Геноцид Ходжалы, Баку – Тбилиси – Карс*

***Key words:*** *Economy, globalization, historiy, philosopy, international realitions, History of Azerbaijan, like spiral, dynamic development, contractual agreement, Khojaly geocide, Baku- Tiblisi-Kars*

Qloballaşma cəmiyyətdə və Elm aləmində öyrənilmə və tədqiq edilməsi ən aktual problemlərdən biridir. XIX əsrin II yarısından kapitalizm özünün ən yüksək fazası olan imperalizmə yerini vermiş oldu. Bazar iqtisadiyyatında cəmiyyətdə aparıcı rol oynayan sindikat, konsern, kartel trestlər və konsern davamı olan konqlomeratların fəaliyyəti üçün stimul olmaqla geniş imkan açmışdır.

Qloballaşma latın mənşəli söz olmaqla “Qlobus” sözündən yaranmışdır. Burada konqlomeratların inteqrasiyası hesabına yer kürəsinin yeni ictimai əmək bölgüsü yaradan fəaliyyəti nəzərdə tutulur. XX əsrdə bir sıra qabaqcıl ölkələrin tədqiqatçıları iqtisadi inteqrasiya hesabına qloballaşmanı diqqətlə öyrənib tədqiq etmişlər. Belə tədqiqatçılardan ABŞ-da Qudzon Tədqiqat İnstitutunda Q. Kan, U. Braun, L. Juartli və b. göstərmək olar. 1976-ci ildə onların birgə nəşrdir. “Axırıncı 2000-ci ildə Amerika və dünya iqtisadi mənzərəsi» və Q. Kanın dünya iqtisadi mənzərəsi və gələcək (1970) adlı əsərləri Qloballaşmanın mahiyyətini izah edən tədqiqat işləridir.

Qloballaşmanı Rusiyada U. Bek, V. Bundam, A. Gözəlov, D.H Kərimov və başqaları tədqiq etmişlər. Onlar öz tədqiqat işləri ilə qloballaşmanın əsl mahiyyətini izah etmişlər. Bu və ya digər elmi tədqiqat əsərləri dünyada gedən inteqrasiya ilə bağlı iqtisadi, fəlsəfi prosesləri tədqiq edərək belə bir nəticəyə gəlmişlər:

1. Bəşəriyyətdə yeni qaydalarla əlaqədar cəmiyyətin yeni reformaların həyata keçirilməsi.
2. Dünya iqtisadi sisteminin yaranması.
3. Milli dövlətlərdə böhran və onların zəifləməsi.
4. Dünya ticarətinin yüksəlməsi və Beynəlxalq əmək bölgüsünün güclənməsi.
5. Miqrasiya axınının güclənməsi və multikulturalizm cəmiyyətinin yaranması.

Bu baxımdan bizim ölkə multikulturalizmin beşiyidir. Azərbaycanda tədris prosesində deyilən və yazılanları əsaslandırmaq üçün məqsədə müvafiqdir ki, Tarix dərsləri fəlsəfi və beynəlxalq münasibətlər elmi, erməni faşizmin mahiyyəti ilə əlaqəli formada tədris edilsin, inteqrasiya və Qloballaşma şəraitində onun iç üzü daha qabarıq şəkildə ifşa edilsin. Həm də bu fənlər bir-birinə qohumdur. Eyni zamanda yeni inteqrasiya və qloballaşma bu fənlərin bir-birinə inteqrasiyası və əlaqələndirilməsini tələb edir. Fənlərin bir-biri ilə əlaqəsinin mütləqliyi xüsusilə multikulturalizm ölkəsi kimi tanınan doğma

Azərbaycanımızın mənafeyinə uyğun bir tələbdir. Azərbaycan tarixinin elə bir mövzusu yoxdur ki, onu fəlsəfə və beynəlxalq münasibətlərlə əhatəli və canlı izah etməyəsən. Fərz edək Azərbaycan tarixinin hansısa bir mövzusunu II Dünya müharibəsi ilə əlaqədar tədris ediriksə onda biz mütləq faşizm ideologiyasını izah etməli oluruq. Onda fəlsəfədə Aristotelin mürtəce nəzəriyyəsi və Avstriya filosofu və Antropoloq Freydə görə, faşizmi izah etməklə Erməni faşizmin əsl mahiyyəti izah edilmiş olur. Əlbəttə alman, yunan və italyan faşizminə nisbətən Erməni faşizmi daha təhlükəlidir. Bu iyrənc təhlükə ikili standartın və Qloballaşmanın görünməyən təhlükəli tərəfidir. Bunu müəllim faktlarla izah etməlidir.

Qloballaşma iqtisadiyyat və cəmiyyətdə olduğu kimi tarix ,fəlsəfə və beynəlxalq münasibətlərdən də yan keçməmişdir. Qloballaşma dünya iqtisadi inkişafının məntiqi nəticəsidir. Tarix fəlsəfə və beynəlxalq münasibətlər qloballaşmaya uyğun tədris edilərsə, daha çox elmi və mənimsənilməsi üçün real zəmin yaratmış olar.

Tarixdə elə bir mövzu yoxdur ki onun, qloballaşmaya uyğun tədris edilməsi mümkün olmasın. Əgər biz 1918-ci il 28 may AXC-ni izah ediriksə, biz mütləq Azərbaycan ərazisində mövcud olan dövlətləri xatırlamalı və ADR-in onun məntiqi davamı olmasını fəlsəfənin inkarın – inkar qanununa əsasən izah edib dinləyənləri başa salmağa çalışmalıyıq. Bu məsələ ADR Milli mənafe və Milli mənlik şüurunun inkişafı baxımından izah edilməlidir. Yaxud biz ADR-nin yaranması və onun daxili və xarici siyasətindən danışırıqsa, onda fəlsəfənin əsas qanunlarından biri olan inkişafın spiral forması olan inkarın inkarına uyğun izah edilməlidir. Aydın göstərilməlidir, AXC ADR-nı inkar etmir, əksinə, ADR AXC-nin varisi olmaqla onun müsbət keyfiyyətli görülmüş işlərini daha çox cəhətli və mənalı aparılması faktlarla izah edilməlidir. Bu proses də beynəlxalq münasibətlərdə fəal iştirak etmiş olur. İnkarın inkar spiralvarı inkişafına diqqət yetirək:

Spiralvari tablonu diqqətə çatdırırıq.

Azərbaycan ərazisində dövlətlərin inkarın – inkar qanuna uyğun inkişaf dialektikasının, sadədən mürəkkəbə, ibtidaidən – aliyə doğru inkişaf dinamikası yaranır.



Azərbaycanın ərazisində olan dövlətlərin keyfiyyət əlamətləri spiralvari dalğanın dairəsinin həcmi ilə ölçülür. Azərbaycan tarixinin e.ə III minillikdən və b .e XXI əsrin inkarın-inkar dinamikası həcminə həm də məzmununa görə bir-birindən fərqlidir.

Azərbaycan tarixi ilə bağlı başqa bir misala müraciət edək. Azərbaycanda İntibah dövrü olan XII-XIV əsrlərin tarixi tədris edilir. Bu dövrdə Azərbaycanda təhsil ,elm, incəsənət, memarlıq, tarixi, fəlsəfi fikir tarixi tədris edilir. İndiki Qloballaşmanın inkişaf dövrü ,fəlsəfənin kəmiyyət dəyişmələrin keyfiyyət dəyişilməsinə çevrilməsi baş verir. İnkişaf faktlarla izah edilərsə daha çox uğur qazanmış olar. Belə ki, Muğamda ilk dəfə Seyfəddin Urməvi tərəfindən muğamların notlaşdırılmışdır. Qloballaşma dövründə muğamlarla bağlı Muğam festivalı, Muğam müsabiqəsi, Muğam mərkəzi, Muğam gecələri xatırlanarsa mövzu daha çox əyani izah edilmiş olar.

Ümumiyyətlə, tarixin tədrisində Qloballaşma ilə əlaqədar bütün mövzularda Fəlsəfə və beynəlxalq münasibətləri əlaqəli şəkildə tədris etmək lazımdır. Xüsusilə tarixin tədrisində Fəlsəfə və beynəlxalq münasibətlərdə Qloballaşma tələbinə uyğun tədris edilməsi məqsədə uyğundur. Beləliklə, inteqrasiya və qloballaşmanın mahiyyətindən gələn tələb ondan ibarətdir ki, tarixi tədris edən müəllim mütləq fəlsəfənin inkarın-inkarı, əksliklərin vəhdəti və mübarizəsi, kəmiyyət dəyişmələrinin, keyfiyyət dəyişikliklərə çevrilməsi qanunların bilməli onda Azərbaycan ərazisində baş verən proseslərdən və hadisələrin ibtidaidən aliyə və sadədən mürəkkəbə doğru inkişafdan baş çıxarmaqla sadə təsəvvürlərə malik olar. Bundan başqa tarixi şərh edən adam beynəlxalq münasibətləri bilmədən ADR-nin xarici siyasətindən Bazar iqtisadiyyatından o, cümlədən, Bakı-Tiblisi-Qars dəmiryol xəttindən, "Əsrin neft, qaz müqaviləsin"dən və ya Xocalı soyqırımından geniş diapazonlu təsəvvürə malik olmarıq və s..

**Problemin aktuallığı:** Tarixin tədrisində qloballaşma ilə əlaqədar mövzuların fəlsəfi yanaşma və beynəlxalq münasibətlərin əks etdirilməsindən ibarətdir.

**Problemin elmi yeniliyi:** Tarix fənninin tədrisində spiralvari əlaqələrin yaradılmasıdır.

**Problemin praktik əhəmiyyəti:** Tarix tədrisində qloballaşma şəraitində beynəlxalq münasibətlərin öyrədilməsində inteqrasiyadan istifadə etməkdir.

## ƏDƏBİYYAT

1. Бек У. Что такое глобализация. М., 2001.
2. Вундм В. Ведение в философию. М., 2001.
3. Керимов Т.В. Избранные произведения. М., 2007.
4. Гезалов А. А. Трансформация общества в эпоху глобализации. Минск, 2013.
5. Розин В.М. Философия Техника. М., 2001.
6. Чумаков А.Н. Глобализация. Контуры целостного мира. М., 2005.
7. Şükürov A.M Fəlsəfə (dərslik). Bakı, 2002.

**М. Алиев**

## НОВЫЙ ПОДХОД К ИСТОРИИ, ФИЛОСОФИИ И МЕЖДУНАРОДНЫМ ОТНОШЕНИЯМ В СВЯЗИ С ИНТЕГРАЦИЕЙ И ГЛОБАЛИЗАЦИЕЙ

### *РЕЗЮМЕ*

Экономическое развитие в обществе привело к интеграции и глобализации. Изучение и внедрение процесса глобализации считается одной из самых актуальных проблем современности. Одной из изучаемых и исследуемых нами проблем является «Проблем интеграции и глобализации».

В связи с интеграцией и глобализацией были сделаны попытки изучения и обучения истории, философии и международных отношений. Толерантность нашей страны делает необходимым изучение этого процесса.

**M. Aliyev**

**NEW APPROACH TO HISTORY, PHILOSOPHY AND INTERNATIONAL RELATIONS IN CONNECTION WITH INTEGRATION AND GLOBALIZATION**

***SUMMARY***

Economic development in society has led to integration and globalization. The study and implementation of the process of globalization is considered one of the most pressing problems of our time. One of the problems studied and investigated by us is "Problems of integration and globalization".I n connection with integration and globalization, attempts were made to study and teach history, philosophy and international relations. The tolerance of our country makes it necessary to study this process.

**Redaksiyaya daxil olub: 07.11.2017**